# İNSAN KAPİTALI – İNNOVASİYALI İQTİSADİYYATIN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ KİMİ



**Məhsəti Əsgərova,**
*Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi, fəlsəfə doktoru üzrə dissertant*
*e-mail: mehseti_74@mail.ru*

Müasir dövrdə Azərbaycan Respublikasının dövlət siyasətinin vacib prioritetlərindən biri iqtisadiyyatın innovasiyalı iqtisadiyyata yönəldilməsidir. Bunun bazasını isə yüksək biliyə əsaslanan sahələrin və elmtutumlu texnologiyaların inkişaf etdirilməsi təşkil edir. Belə ki, ictimai, iqtisadi və sosial həyatda innovasiya fəaliyyəti və innovativ proseslərin nəticələrindən istifadə edən perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsinə, eləcə də intellektual potensialın üzə çıxarılmasına, idarəetmə sisteminin təkmilləşdirilməsinə, innovasiyalı iqtisadiyyatın qurulması və rəqabətqabiliyyətli, elmtutumlu məhsul istehsalının təmin edilməsinə öz müsbət təsirini göstərir.

Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət ölkənin sosial innovasiya potensialının bütün imkanlarının reallaşdırılmasına, eləcə də elm və təhsilin, elmtutumlu cəmiyyətin və mədəniyyətin davamlı inkişafının bərqərar edilməsinə yönəldilib.

Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə innovasiyaların tətbiqinə hələ yeni əsrin əvvəllərindən başlanılıb. İnnovasiyalar daha təkmil texnoloji proses yaradılması, bazara yeni məhsul çıxarılması, həmçinin sosial xidmətlərə yeni tərzdə yanaşma ilə ifadə olunur. Bütün sahələrdə innovasiyaların artan sürətlə tətbiq olunması muxtar respublikanın sosial-iqtisadi inkişafının müasir mənzərəsini yaradıb. İqtisadiyyatımızın sahə strukturunda mütərəqqi dəyişikliklər, ənənəvi sahələrlə yanaşı, texnoloji və elmtutumlu yeni sahələrin meydana gəlməsi, yeni məhsulların istehsalı, mövcud məhsulların yeni növ və modifikasiyalarda bazara çıxarılması ilbəil daha geniş miqyas alıb. Bunun nəticəsidir ki, muxtar respublikada 384 növdə məhsul istehsal olunur, 350 növdə məhsula tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Muxtar respublikada innovasiyaların stimullaşdırılması istiqamətində öncədən başlayan və hazırda yeni müstəvidə davam etdirilən məqsədyönlü tədbirlər innovativ inkişafın yeni mərhələyə yüksəlməsinə təkan verib. Elm və təhsil müəssisələrində yaradılan informasiya-kommunikasiya infrastrukturunun interaktiv təhsil sisteminə qoşulması kadr hazırlığında yeni dövrün əsasını qoyub. Təsadüfi deyildir ki, Azərbaycanda, eləcə də Naxçıvanda fəaliyyət göstərən universitetlərdə iqtisadiyyatın bugünkü inkişaf səviyyəsinə, mövcud elmtutumlu sənaye müəssisələrində istehsal proseslərini təşkil etmək və innovativ texnologiyalarla işləmək bacarığına malik mütəxəssislərin hazırlığı həyata keçirilməkdədir. Universitetlərin informasiya texnologiyaları fakültələrində tədrisin keyfiyyətinin yaxşılaşdırılması, gənclərin xaricdə təhsilinin genişləndirilməsi və peşə təhsili müəssisələrinin

yaradılması prioritet bir sahənin inkişafı üçün vacib olan insan resurslarının yaradılmasına istiqamətlənmiş və bu sahədə olduqca vacib addımlar hesab oluna bilər. İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi elm, təhsil və istehsal sahələrində maddi-texniki bazanın müasir tələblər səviyyəsinə çatdırılması, elmi tədqiqatların aparılması, sınaqdan keçirilməsi və tətbiqini, "elm-istehsal-bazar" əlaqələrinin optimallaşmasını, köməkçi qurumların yaradılmasını təşviq edir. İqtisadiyyatın davamlı inkişafı, rəqabətqabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya, yüksək texnologiya sahələrinin genişləndirilməsi elm, texnologiya və innovasiya vasitəsi ilə milli iqtisadi inkişafa töhfə verməyi, milli innovasiya sistemini genişləndirmək və bu sahəyə investisiya axınını gücləndirməyi hədəf alaraq uğurlu layihələrin həyata keçirilməsini dəstəkləyir.

Bilik iqtisadiyyatının inkişafı ilə əlaqədar olan qlobal çağırışlar ali məktəblərin ölkənin və regionların innovasiyalı inkişafının aktiv subyektlərinə çevrilməsini tələb edir. Ali məktəblərin ənənəvi sferalarda fəaliyyətindən – təhsil və elmi-tədqiqat işləri, habelə onların iqtisadiyyatda tətbiqindən başqa, müasir dövrdə daha bir məsuliyyəti, başqa sözlə, universitetlərin "üçüncü missiyası" olan müasir innovasiya infrastrukturunun formalaşdırılması zərurətindən irəli gəlir. Doğrudan da, müasir universitetlər innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, ali məktəblərin elmi əsasında kiçik innovasiya müəssisələri zolağının yaradılması, elmi nailiyyətlərin və yeni texnologiyaların ölkə müəssisələrinə ötürülməsi, ölkənin beynəlxalq və yerli vençur kapitalına cəlb edilməsi üçün cəlbedici layihələr hazırlanmsı, innovasiya fəaliyyətini dəstəkləyən infrastrukturun yaradılmasına elmi və ideya dəstəyi göstərilməsi, innovasiya fəaliyyətinin kadr təminatı kimi funksiyaları da yerinə yetirməlidirlər.

Ali təhsil insan kapitalının formalaşması və inkişafında mühüm mərhələdir və özünü insan kapitalının formalaşmasında bilavasitə iştirak edən ixtisaslı mütəxəssislərin hazırlanmasında, yeni biliklərin yaranması, tətbiqi və ötürülməsində iştirak etməkdə büruzə verir. Respublikanın ali təhsil müəssisələrində hazırlanan kadrlar dövlət və şirkətlərin idarə edilməsində, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Ali təhsilin keyfiyyətinin yüksəldilməsi, dünya təhsil məkanına inteqrasiya, ali təhsilin cəmiyyətin və iqtisadiyyatın müasir tələblərinə uyğunlaşdırılması sahəsində islahatlar sürətləndirilməkdədir. Ali təhsil müəssisələrinin təhsil prosesində elmi məktəbin innovasiya potensialının mahiyyəti müasir bazar münasibətlərində daim artmaqdadır. Yeni elmi biliklər, yüksək ixtisaslı mütəxəssislər innovasiya iqtisadiyyatının əsas tərkib hissəsi kimi dövlətin xüsusi diqqət obyektidir. Universitetlərin rəqabətqabiliyyətli müasir təhsil müəssisəsi kimi formalaşması üçün onun fəaliyyəti, təlim-tərbiyə və elmi tədqiqatlarla yanaşı, innovativ fəaliyyət istiqamətlərini də əhatə etməlidir.

Azərbaycanda milli iqtisadiyyatın uzunmüddətli perspektivləri fonunda sənayeləşmə siyasəti, innovasiyalardan istifadə, həmçinin kreativ ideya və təşəbbüslərin dəstəklənməsi prosesləri artan inkişaf göstəricilərinə xas olmaqla davam etməkdədir. Bütün bunlar ölkənin regional iqtisadi inkişaf tədbirlərinin də səmərəli nəticələrini ifadə etməklə, makro-iqtisadi göstəricilərin artan dinamikada təşəkkülünə təkan olan Naxçıvan Muxtar Respublikasında bu sahədəki perspektivlərində keyfiyyətcə yeni mərhələni ifadə edir. Artıq hazırkı mərhələdə bütün bu amillərdən istifadə olunmaqla, elmin, təhsilin və tədrisin yeni çağırışlar əsasında təşəkkülünə daha əlverişli zəmin yaranacaq, elmin istehsalata tətbiqinin çox mühüm nəticəsi olacaq. Bu proseslər Naxçıvan Dövlət Universitetində artıq ənənə halını alan uğurları ilə təşkil olunmaqdadır.

Bu gün muxtar respublikada elmin və innovasiyanın məqsədyönlü inkişafını təmin etmək məqsədi ilə iqtisadiyyatın texnoloji modernləşdirilməsini həyata keçirtməyin, elmi potensialı dayanıqlı iqtisadi inkişafın əsas resurslarından birinə çevirməyin, tədqiqatların və effektiv innovasiya sisteminin strukturunun formalaşdırmağın zəruriliyi alim və mütəxəssislər qarşısında yeni vəzifələr qoyur.

Naxçıvan Dövlət Universitetində "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsi çərçivəsində elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə

və s. kimi təhsilin idarəedilməsi modellərini özündə birləşdirən "Elektron Universitet" formalaşdırılıb. Universitetdə innovativ inkişafla əlaqədar olaraq gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün "İnnovasiya Mərkəzi" və "İnnovasiya Laboratoriyası" yaradılıb. Bu mərkəz və laboratoriya ali təhsil müəssisəsində tələbələrin startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, bu layihələrin təqdimatı ilə bağlı maarifləndirici treninqlərin keçirilməsini təmin edir ki, bu da gələcək elmimizə gənc kadrların cəlb edilməsi baxımından çox əhəmiyyətlidir.

Universitetdə "Texnologiyalar Parkı"nın yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 dekabr 2020-ci il tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirəcəkdir. Burada əsas məqsəd elmlə istehsalat arasında qarşılıqlı əlaqənin qurulması, istehsalatın yeni elmi ideyalar əsasında inkişafı, elmi tədqiqatlara olan xərclərin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Bir sözlə, Naxçıvan Dövlət Universiteti artıq yeni mərhələdə dünya təhsilinə inteqrasiya olunması proseslərini sürətləndirməklə axtarış, araşdırma, yanaşma və mənimsəmə, yanaşma və ixtisaslaşma keyfiyyətlərinin inkişafı sahəsində mühüm addımlar atmış olacaq, yeni layihələrin, ideya və təşəbbüslərin müəllifləri olaraq tələbələrin yaradıcılıq fəaliyyətlərini daha da artıracaq, həmçinin nəzəriyyə ilə təcrübə arasında qarşılıqlı tənzimləmə mexanizmlərinin düzgün idarə olunmasını təmin edə biləcək, ayrılıqda sosial-iqtisadi sahələrin hər birinə, ümumilikdə isə milli iqtisadiyyat üzrə perspektivlərin əhatəsinin genişlənməsinə hərəkətverici təsir edəcək, daha keyfiyyətli, daha etibarlı və innovativ təhsilin dayaqlarını gücləndirəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 4 may tarixli, 255 nömrəli Sərəncamı. Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya.

2. Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyası.

3. Həsənov R.T, Hüseynov A.F, Qasımov Ə.Ə. Azərbaycanın İKT müəssisələrinin innovasiya fəaliyyətinin qiymətləndirilməsi və innovasiya potensialının modelləşdirilməsi // "AMEA"-nın xəbərləri. "Elm və İnnovasiya seriyası", №1, 2011.

4. Məmmədov S. "Xalq qəzeti" 11 oktyabr 2020.

5. NDU: Yeniliklər, ixtisaslaşma və modernləşmə. AZ. press.az. 23.10.2021.

6. AMEA informasiya Texnologiyaları İnstitutu. www.ict.az

7. Нестеров Л., Амирова Г. Национальное богатство и человеческий капитал // В.Э Вопросы экономики. №2, 2003, стр. 103-110.